# A NEW APPROACH TO THE SUBJECT OF SPEECH DEVELOPMENT METHODOLOGY IN TEACHER TRAINING

**Khatira Khalilova**

Institute of Education of the Republic of Azerbaijan,
doctoral student
E-mail: xatire82@gmail.com
https://orcid.org/0000-0003-3828-0565

**Abstract.** Speech development in children begins to form from a young age. Preschool education has a special role in the acquisition of coherent, reasoned, clean, rich speech. Teachers should be especially sensitive to the teaching process of the subject «Speech Development Methodology» when working with students of higher and secondary specialized educational institutions studying «Preschool education and upbringing». If the teaching of this subject is carried out correctly, the student will not face difficulties in developing the child's speech when he acts as a tutor-teacher in the future. Lessons should be built on the basis of the interactive teaching method, efforts should be made to apply integrated lessons, observations should be made, expressive reading should be applied, excursions and their analysis, points of preparation of various resources and their use, visual aids in the process of teaching the subject, and the use of games with different rules should be used. Students should be direct participants in all these processes. Otherwise, he will face difficulties during his career.

**Keywords:** practical method, competence, speech development, resource, innovation, integrative, content standard, activity, games, strategy.

**DOI:** 10.30546/2709-2488.2.2023.101
**To cite this article:** Khalilova Kh. (2023). A new approach to the subject of speech development methodology in teacher training. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 101-109.
**Article history:** received – 22.02.2023; accepted – 31.05.2023.

# TƏRBİYƏÇİ-MÜƏLLİM HAZIRLIĞINDA "NİTQ İNKİŞAFI METODİKASI" FƏNNİNƏ YENİ YANAŞMALAR

**Xatirə Xəlilova**

Azərbaycan Respublikasının Təhsil İnstitutu, doktorant
E-mail: xatire82@gmail.com
https://orcid.org/0000-0003-3828-0565

**Annotasiya.** Məqalədə tərbiyəçi-müəllim hazırlığında nitq inkişafı metodikası fənninə yeni yanaşmalardan söhbət gedir. Uşaqların rabitəli, əsaslandırılmış, təmiz, zəngin nitqə yiyələnmələrində məktəbəqədər təhsilin xüsusi rolu vardır. Ali və orta-ixtisas təhsili müəssisələrində məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə təhsil alan tələbələrlə iş zamanı müəllimlər nitq inkişafı metodikası fənninin tədrisinə xüsusi həssaslıqla yanaşmalıdırlar. Bu fənnin tədrisi düzgün aparılarsa, tələbə gələcəkdə tərbiyəçi-müəllim kimi fəaliyyət göstərdiyi zaman uşağın nitqinin inkişaf etdirilməsində çətinliklərlə qarşılaşmaz. Dərslər interaktiv təlim metodu əsasında qurulmalı, inteqrasiya olunmuş dərslərin tətbiqinə çalışmaq, müşahidələr aparmaq, ifadəli oxu tətbiq etmək, ekskursiyalar təşkil etmək və onların təhlilindən, müxtəlif resursların hazırlanması və onlardan istifadə məqamlarından, fənnin tədrisi prosesində əyani vəsaitlərdən, müxtəlif qaydalı oyunların tətbiqindən istifadə olunmalıdır. Tələbələr bütün bu proseslərin birbaşa iştirakçısı olmalıdırlar. Əks təqdirdə, onlar əmək fəaliyyətinə başladıqları zaman çətinliklərlə qarşılaşa bilərlər.

**Açar sözlər:** praktik metod, nitq inkişafı, resurslar, innovasiyalar, inteqrativlik, məzmun standartları, strategiya.

**DOI:** 10.30546/2709-2488.2.2023.101
**Məqaləyə istinad:** Xəlilova X. (2023). Tərbiyəçi-müəllim hazırlığında "Nitq inkişafı metodikası" fənninə yeni yanaşmalar. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 2 (243), səh. 101-109.
**Məqalə tarixçəsi:** göndərilib – 22.02.2023; qəbul edilib – 31.05.2023.

## Giriş / Introduction

Nitq və ünsiyyət insanın həyatında çox mühüm rol oynayır. Nitq vasitəsi ilə insan öz fikirlərini, hisslərini izah edir, cəmiyyətə inteqrasiya olunur. İnsan məhz nitq vasitəsi ilə başqaları ilə əlaqə yaradır, onlara təsir göstərir. Düzgün nitq uşağın hərtərəfli inkişafı üçün vacib şərtlərdən biridir. "Nitqində qüsur olan uşaqlar başqalarından fərqləndiklərini hiss etdikləri vaxtdan etibarən səssiz, qərarsız və utancaq olur, tədricən özlərinə qapanırlar və həyatın ən əsas şərtlərindən biri olan ünsiyyət, kommunikasiya bacarıqlarından məhrum olurlar" [Uşaq inkişafı metodikası., 2011].

Nitq və ünsiyyət uşaqların bilik və bacarıqlara yiyələnmələrində mühüm rol oynadığı üçün onların erkən yaş dövrlərindən başlayaraq inkişaf etdirilməlidir. Tərbiyəçi-müəllimlər bu istiqamətdə xüsusi bilik və bacarıqlara yiyələnməli, uşaq nitqinin inkişaf qanunauyğunluqları haqqında məlumata malik olmalı, mütəmadi olaraq uşaqlarla nitq inkişafı üzrə iş aparmalıdırlar.

Peşə hazırlığı üzrə təkmilləşdirilən, təhsilə innovativ yanaşan, pedaqoji yaradıcılıqla məşğul olan, mütəmadi olaraq bilik və bacarıqlarını artıraraq özlərini inkişaf etdirən tərbiyəçi-müəllimlər böyüməkdə olan gənc nəsli yüksək intellektli, özünə inamlı, bacarıqlı şəxsiyyətlər kimi formalaşdırırlar. Bu, eyni zamanda tərbiyəçi-müəllimin peşəkar mütəxəssis olmasını təmin edir. Müasir dövrdə tərbiyəçi-müəllim əldə etdiyi biliklərlə kifayətlənməməli, daim elmi yenilikləri izləməli, təlim və seminarlarda iştirak etməli, müəllim nüfuzunu qoruyub saxlamaq üçün öz inkişafını təmin etməlidir. Daim yenilənən və inkişaf edən müasir cəmiyyətdə gənc nəsil nəzəriyyələri, uzun-uzadı mühazirələri qəbul etmir, rəngarəng, fərqli, yeni metodlarla maraqlanır, fəaliyyətdə olaraq öyrənməyi üstün tutur. Əgər müəllim uşaqların diqqətini təlim prosesinə yönəltmək istəyirsə, problemə yanaşma metodunu dəyişməlidir. Ən yaxşı öyrətmə uşaqlarla birlikdə öyrənməkdir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın ikinci strateji istiqaməti təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və təhsilverənlərin peşəkarlığının yüksəldilməsini, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını özündə ehtiva edir.

## Əsas hissə / Main part

Azərbaycan Respublikasında təhsilin ilk pilləsi olan məktəbəqədər təhsilin başlıca vəzifəsi uşaqları məktəbə, təlim prosesinə hazırlamaqdır. Bu mühüm vəzifənin yerinə yetirilməsində ana dilinə yiyələnmək xüsusi əhəmiyyət daşıyır. Ana dilinin sirlərinə yiyələnməyən, fikrini sərbəst ifadə etməyi bacarmayan şagird təhsildə nailiyyətlər əldə edə bilməz.

Ana dili məktəbəqədər yaşlı uşaqların ümumi inkişafının əsasıdır. Ana dili vasitəsi ilə uşaqlar ətraf aləmi dərk edir, elmi biliklərə yiyələnirlər. Ana dili uşaqların mənəvi tərbiyəsinə, estetik hisslərinə güclü təsir göstərir. "Ana dili" anlayışı dilə mükəmməl yiyələnməyin bütün sahələrini geniş şəkildə əhatə edir. "Ana dili tədrisinin başlıca prinsipi nitq inkişafıdır. Uşaq bağçalarında oxu və yazı texnikası, hüsnxət, qrammatikanın tədrisi və s. məsələlər üzrə iş aparılmadığından burada uşaqların, əsasən nitqinin inkişafı ön plana çəkilir" [Kərimov Y., 2009].

Məktəbəqədər təhsil müəssisələri ibtidai təlim üçün əsas bünövrə hesab olunur. Təlim-tərbiyə müəssisələrinin qarşısında uşaqların hərtərəfli inkişaf etdirilməsi vəzifəsi qoyulmuşdur ki, bu vəzifənin yerinə yetirilməsində nitq inkişafı mühüm rol oynayır. "Uşaqların intellektual inkişafının vasitələrindən biri də nitqin formalaşmasıdır. Təfəkkür fəaliyyəti nitqsiz qeyri-mümkündür. Söz fikrin maddi qabığıdır. Uşaq nitqdən istifadə zamanı öz fikirlərini və hisslərini ifadə edir. Nitq uşağı əhatə edən insanlara təsir etmək üçün bir vasitədir. Hər bir uşağın ana dilini mənimsəməsi zəruridir" [Uşaq inkişafı metodikası., 2011].

Uşağın məktəbdə qazandığı uğurlar, onun şəxsiyyət kimi formalaşması, ictimai həyatdakı rolu məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. "Məktəbəqədər yaş uşağın fəal şəkildə sosiallaşması, mədəni vərdişlərin mənimsənilməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür" [Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu)., 2022].

Məktəbəqədər təlim və tərbiyə ixtisasının əsas aparıcı fənni olan nitq inkişafı metodikasının tədrisinə müəllimlər daha diqqətlə və məsuliyyətlə yanaşmalıdırlar. Nitqin inkişaf etdirilməsinə dair işlər bütün fənlər üzrə məşğələlərdə aparılmalıdır. "Nitq inkişafı metodikası"nı tədris edən müəllimlər tələbələrə bu işə kompleks yanaşmanın yollarını açıqlamalı və dərsləri yalnız nəzəri yox, praktik materiallar əsasında da qurmalıdırlar. Ənənəvi mühazirə – seminar formatından çıxaraq inteqrativ dərslər qurmaq, dərslərdə nitq inkişafına təsir edən oyunlar tətbiq etmək, əyani vəsaitlər, müxtəlif resurslar hazırlamaq, nitq və ünsiyyət vərdişlərini inkişaf etdirən tədqiqat mövzuları həm tələbələrin dərsə marağını artırır, həm də yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Tələbə bu prosesin fəal işti-

rakçısı olaraq gələcək iş fəaliyyətində uşaqların nitqini necə inkişaf etdirəcəyini müəyyənləşdirir, yeni yollar axtarır, fərqli ideyaları araşdırır.

Təlim öyrədən və öyrənənin iştirak etdiyi ikitərəfli prosesdir. Təlim metodu öyrədən və öyrənənin iş üsuludur. Təlim metodları vasitəsi ilə öyrənənlər elmi bilik və bacarıqlara yiyələnir, dünyagörüşlərini inkişaf etdirirlər. Nitq inkişafı təliminin metodları, digərlərindən fərqli olaraq, ana dilinin mənimsənilməsinin qanunauyğunluqlarından irəli gəlir, linqvodidaktika prinsipləri əsasında qurulur. "Nitq uşağın müxtəlif qabiliyyətlərinin inkişafı prosesində, intuitiv şəkildə, qeyri-şüuri mənimsənilir. Nitqdə inkişaf o zaman sürətlə, intensiv gedir ki, tərbiyəçi nitq təliminin müxtəlif metodları və priyomlarından istifadə etsin" [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013].

XXI əsr bacarıqlar əsridir. Bu günün uşaqları daha hərəkətli, daha rəngli və daha sürətli öyrənməni seçirlər. Təlimə maraq yaratmaq üçün məşğələlər praktik və əyani metodlar üzərində qurulmalı, bacarıqlar aşılanmalıdır.

Bəzən ali və orta-ixtisas təhsili müəssisələrində yalnız şifahi metoddan istifadə edilir. Bu da gələcək tərbiyəçi-müəllimlərin sərbəst fəaliyyəti zamanı bir sıra çətinliklər yaradır. Dərsləri, əsasən, əyani və praktik metodların üzərində qurmağa çalışırıq. Müşahidə və qiymətləndirmə nəticələrinin təhlili bunu deməyə əsas verir ki, belə olan halda tələbələrdə öyrənməyə daha çox həvəs yaranır, onların yaradıcılıq qabiliyyətləri inkişaf edir, nitqləri tədricən cilalanır. Oyunlar da nitq inkişafına müsbət təsir göstərir. "Oyun uşaqların nitqinə güclü təsir göstərir. Oyunun sözlə müşayiət olunması, hərəkətlərin sözlə ifadə olunması, obrazların yaradılması uşaqların lüğət tərkibinin zənginləşməsinə təsir göstərir" [Həsənov A., 2011].

Nitqin səs mədəniyyəti, nitqanlama, nitqeşitmə, intonasiya ilə bağlı müxtəlif oyunların araşdırılması və tətbiq olunması zamanı uşaq nitq tənəffüsünün – nəfəsalma və nəfəsvermənin əhəmiyyətini dərk edir. "Təsvirə görə tap", "Lentləri ayır", "Öz evini tap", "Xoşbəxt əşyalar", "Gəl söhbət edək" kimi oyunların tətbiqi şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə, lüğətin dəqiqliyinə, təsəvvürün və təxəyyülün inkişafına müsbət təsir edir. Ümumiyyətlə, dərs prosesində bu üsuldan istifadə çox uğurlu hesab olunur. Belə ki, uşaqların qaydalara uyğunlaşması, zamanı hiss etməsi, əməkdaşlıq, müzakirə etmək və ortaq nəticəyə gəlmək kimi bacarıqları da formalaşmış olur. Oyun elə bir öyrənmə və öyrətmə üsuludur ki, yaşından asılı olmayaraq, hər bir insanı özünə cəlb edir.

Praktik metodun tətbiqinə aid bir nümunə gətirək. Dərsdə tələbələrə lüğət ehtiyatının zənginləşdirilməsi, nitqin morfoloji və sintaktik quruluşunun formalaşdırılması, rabitəli nitqin inkişafı, nitqin qrammatik quruluşunun formalaşdırılması mövzularına aid müxtəlif əyani vəsaitlərin – resursların hazırlanması tapşırılır. Bunun üçün tələbələr qruplara ayrılır və onlar üçün müəyyən vaxt təyin edilir. Belə tapşırıqların hazırlanmasına təxminən bir həftə vaxt lazım olur. Qruplara

təlimatlar verilir, qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün metodik dəstək göstərilir. Təqdimatlar zamanı qruplar yalnız hazırladıqları resursları təqdim etmir, həm də digər tələbələri  həmin prosesə cəlb edərək, vəsaitin əyani şəkildə tətbiqinə çalışırlar. Ümumiyyətlə, belə dərslər kifayət qədər maraqlı və yaddaqalan olur, şagirdləri fəaliyyətə sövq edir, birbaşa öyrənməni təmin edir. Onlarda kreativ düşünmə bacarığı formalaşır, əşyalardan fərqli istifadə üsulları inkişaf edir.

Maraqlı üsullardan biri də *süni nitq situasiyalarının* yaradılmasıdır. Bu zaman verilmiş tapşırığa uyğun nitq situasiyaları yaradılır və bu situasiyalar tələbələrin iştirakı ilə icra olunur. Tətbiq prosesində düşünülmüş süni situasiyanın uğurlu olması müəyyən edilir. Növbəti məşğələlərdə tələbələr situasiyaların yaradılmasına daha diqqətlə yanaşırlar. Bu üsulun tətbiqi məntiqi və tənqidi təfəkkürü, yaradıcı, fərqli və sürətli düşünməyi təmin edir.

Tələbələrdə müşahidə bacarıqlarının formalaşması üçün müəyyən ekskursiyaların təşkil olunması onların bu istiqamətdə inkişafı üçün olduqca faydalıdır. Ekskursiyalar məqsədyönlü şəkildə elə təşkil edilməlidir ki, müəllimlər tələbələrin müşahidə bacarıqlarını qiymətləndirə bilsinlər. Bunun üçün əvvəlcədən müşahidə aparmağın qaydası və yolları izah edilir. “Uşaq təfəkkürünün inkişaf etdirilməsi üçün müşahidə də ən qiymətli üsuldur.  Müşahidə zamanı uşaq təbiətin cisim və hadisələrində olan oxşar və fərqli cəhətləri müəyyənləşdirib görməyi bacarmalıdır. Tərbiyəçi-müəllim təbiətdə müşahidə təşkil edərkən çalışmalıdır ki, uşaqlar hadisələri dərk etməklə yanaşı, təhlil-tərkib, müqayisə sayəsində əqli nəticələr çıxarmağı da bacarsınlar” [Ətraf aləm və təbiətlə tanışlıq metodikası –2., 2020].

Müşahidə aparmağı və düzgün nəticə çıxarmağı bacaran gələcək tərbiyəçi-müəllimlərdə uşaqlarla işləmək bacarığı daha yaxşı inkişaf etmiş olur. XXI əsr texnologiyalar əsri olduğu üçün tələbələrdə İKT-dən istifadə bacarıqları inkişaf etdirilməli, ondan istifadənin səmərəli yolları öyrədilməlidir.

Gəldiyimiz qənaət budur ki, yalnız uşaqlarla işləyən zaman deyil, həm də uşaqlarla işləmək üçün mütəxəssis hazırlığında da bu tipli tapşırıqlar icra olunmalıdır. Tələbə birbaşa iştirak prosesində daha yaxşı mənimsəyir və inkişaf edir. Çox vaxt hazır mühazirələrdən, sual-cavab, mövzunun plan üzrə danışılması kimi üsullardan istifadə olunur. Tələbə dinləyici mövqeyində qeyri-fəal olduğuna görə öyrənmə prosesi ləng gedir. Digər fənlərin tədrisi zamanı da gələcəkdə mütəxəssis olacaq  tələbələr öz nitqlərinə diqqətlə yanaşmalı, onu daim inkişaf etdirməlidirlər.

Müasir dövrdə fikrini dəqiq, düzgün ifadə edə bilən, münasibət bildirərkən fikrini yığcam və sadə şəkildə çatdıra bilən, rabitəli, səlis, ifadəli nitqə, zəngin söz ehtiyatına malik olan, hamı ilə ünsiyyət qurmağı bacaran şəxslərə tələbat

çoxdur. Bu bacarıqların uşaqlarda formalaşdırılmasına kiçik yaşlardan başlamaq lazımdır. Müəllimin, valideynlərin nəzarəti olmadan bu prosesin tənzimlənəcəyini hesab etmək doğru deyil. Uşağın nitq inkişafı üzərində nə qədər çox çalışsaq, nəzarət etsək, bir o qədər çox müsbət nəticələr əldə etmək olar. Nitqin təmizliyi, dəqiqliyi, zənginliyi və ifadəliliyinin təməli kiçik yaşlardan məktəbəqədər təhsil müəssisəsində qoyulur. Uşaqlarda nitqeşitmə, nitqin səs mədəniyyəti, nitqanlama, nitqin sintaktik quruluşunun formalaşması, lüğət ehtiyatının formalaşması, rabitəli nitqin inkişafı prosesi məhz məktəbəqədər təhsil dövründə baş verir. Deməli, məktəbəqədər yaş dövrü, uşaq inkişafının bütün sahələrində olduğu kimi, nitq inkişafının da təməl dövrüdür. “Tərbiyəçi-müəllim uşaqlarla yaradıcı oyunların təşkilinə üstünlük verməli, ünsiyyətin və nitqin inkişafına çalışmalı, öz fikrini bildirməyi və mövqeyini müdafiə etməyi öyrətməli, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafını təmin etməlidir” [Müasir uşaq bağçalarında təlimin təşkili., 2011].

Müəllimin peşəkarlıq və səriştəlilik səviyyəsinin artması onun pedaqoji fəaliyyəti ilə birbaşa bağlı olan bir prosesdir. Bu, hər şeydən əvvəl, pedaqoji fəaliyyətdə daim yeniliklərə tələbatın olması ilə bağlıdır. Pedaqoji fəaliyyət innovasiyalar tələb edən bir işdir. Onun olmaması pedaqoji fəaliyyəti yeknəsəq edir, onun cəlbediciliyini, rəngarəngliyini azaldır və uşaqların inkişafını ləngidir, müəllim fəaliyyətinin səmərəliliyini aşağı salır. Cəmiyyətin inkişaf sürəti, uşaqların daha çox yeniliklərə meyil etməsini, aparılan təlim-tərbiyə işlərinin cəmiyyətin artan tələbləri ilə uzlaşdırılmasını tələb edir. Təlim prosesi şagirdləri özünə cəlb etməlidir. Uşaqlar hər gün yeniliklərlə qarşılaşacaqlarını, yeni biliklər əldə edəcəklərini səbrsizliklə gözləməli, məktəbəqədər müəssisəyə getməyə, tərbiyəçi-müəllimlərlə ünsiyyətdə maraqlı olmalıdırlar. Bu isə tərbiyəçi-müəllimlərdən peşəkarlıq və səriştəlilik tələb edir.

## Nəticə / Conclusion

Məktəbəqədər təhsil sahəsində innovasiyaların, yeni strategiyaların iş fəaliyyətində tətbiqinə çalışan, təlim zamanı müasir texnologiyalardan uğurla istifadə edən, azyaşlı uşaqlarla işləmək bacarığı olan, qayğıkeş, səriştəli və peşəkar tərbiyəçi-müəllimlərə ciddi ehtiyac var. Təhsilin təməli məktəbə qədər təhsildən başlayır. Binanın dözümlülüyü, möhkəmliyi onun bünövrəsinin keyfiyyətinə görə müəyyən olunduğu kimi, uğurlu təhsilin də təməlində uğurlu məktəbəqədər təhsil dayanır. Uşaqlara məktəbəqədər yaş dövründən başlayaraq bilik, bacarıq və vərdişlər aşılamaq onların sonrakı yaş dövrlərində mühüm rol oynayır, yəni onlara bu yaş dövründə diqqət, qayğı göstərmək, onlarda oxumağa, elmə, biliyə həvəs və sevgi yaratmaq, təməl bacarıqları formalaşdırmaq lazımdır. Bu dövrdə

əldə edilən bilik və bacarıqlar gələcək mərhələlər üçün mayak rolunu oynayır.

Məktəbəqədər yaşlı uşaqların nitq və ünsiyyət bacarıqlarının formalaşdırılmasında məktəbəqədər müəssisələr xüsusi əhəmiyyət daşıyır. Burada uşağın lüğət ehtiyatı formalaşır, rabitəli nitq, nitqin səs mədəniyyəti, nitqanlama və nitqeşitmə inkişaf edir. Əyani vəsaitlərin dərs prosesində hazırlanması, müxtəlif oyunların tətbiq edilərək öyrədilməsi, fərqli fəaliyyət üsullarından istifadə edilməsi, resursların hazırlanması və s. nitq inkişafı məşğələlərinə yeni yanaşmalardır. Deməli, uşaq fəaliyyət prosesinin birbaşa iştirakçısı olarkən daha asan öyrənir, onda yaradıcı ideyalar, fikrini ifadə edə bilmək bacarığı formalaşır. Bütün bunlara əsaslanaraq deyə bilərik ki, dərslərin əyaniliklər üzərində qurulması vacibdir.

**Məqalənin aktuallığı.** Müasir dövrdə şifahi və yazılı nitq bacarıqlarının inkişafı diqqət mərkəzindədir. Nitq inkişafı prosesi, əsasən, məktəbəqədər yaş dövründə formalaşdığı üçün bu mövzu həmişə aktualdır. Məqalədə nitq inkişafının təmin edilməsinə aid bəzi metodik tövsiyələr verilib. Belə ki, fənnin tədrisi zamanı əyani və praktik metodların tətbiqinə, mövzuların tədrisində inteqrativliyin təmin olunmasına aid məqamlara toxunulmuşdur.

**Mövzunun elmi yeniliyi.** Nitq inkişafı metodikası fənninə yeni yanaşma gələcək tərbiyəçi-müəllimlərin müasir tələblərə cavab verməsinə, əmək bazarına davamlılığına zəmin yaradır. Oyun-dərslərin, ekskursiya-dərslərin, inteqrativ dərslərin tətbiqi tələbələrin bacarıqlarının inkişafına müsbət təsir göstərir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən ideya və tövsiyələr, fikirlər və rəylər tərbiyəçi-müəllimlər, pedaqogika sahəsində tədqiqat aparan dissertant və doktorantlar, məktəbəqədər təhsil ixtisası üzrə təhsil alan tələbələr, bu sahə ilə maraqlanan digər şəxslər üçün faydalı ola bilər. Məqalədə verilmiş nəzəri biliklərin təcrübədə tətbiqinə dair nümunələr yeni fəaliyyətə başlamış tərbiyəçi-müəllimlərə, bilik və bacarıqlarını inkişaf etdirmək istəyən fənn müəllimlərinə dəstək ola bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). (2022).
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr. Bakı.
3. Qəşəmoğlu Ə., Cəfərova L., Mikayılova Ü., İsmayılova M., Əhmədova A., İmanova L., Həmidova X., Qafarov A., Oktayqızı R. (2020). Ömrün uğurlu bünövrəsi. Bakı.
4. Mütəllimova S. (2002). Ətraf aləm və təbiətlə tanışlıq metodikası – 2.
5. Həsənov A. (2011). Məktəbəqədər pedaqogika. Bakı, "Nasir"nəşriyyatı.
6. Hüseynzadə F. (2014). Uşaqların nitq inkişafında məktəbəqədər müəssisələrin rolu. Bakı, "Palitra", s.11.
7. Hüseynova H. (2014). Nitq inkişafına dair praktik məşğələlər. Bakı, "Elm və təhsil".
8. İsmayılova M. (2010). Nitq inkişafı üzrə didaktik materiallar. Bakı.
9. Kərimov Y. (2009). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı.
10. Müasir uşaq bağçalarında təlimin təşkili. (2011). Bakı.
11. Sadıqova T. (2011). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafına xidmət edən didaktik oyunlar. Bakı.
12. Sadıqova T. (2012). Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı məşğələləri. Bakı.
13. Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi. (2020). Bakı, 300 s.
14. Uşaq inkişafı metodikası. (2011). Bakı, "Qanun" nəşriyyatı.